

Ayaz Arabaçı

Nə zaman ki, səsintək nəğmələnir yağışlar,
Ürəyimin simləri gərilir tarım-tarım.
Nə zaman ki, toqquşur bir nöqtədə baxışlar,
Çiçəklərə çevrilir odlu yalvarışlarım.

Nə zaman ki, xəyalım dağılır qol-qıç olur,
Əlimdəki qələmlə ürəyimi didirəm.
Nə zaman ki, göyərib barmaqlarım qıc olur,
Sənə bir şer yazıb canımı isidirəm.

Gah ən yaxın şəhərdə, gah ən uzaq kənddəyəm,
Gəzirəm harda gəldi baş alıb veyil-veyil.
Mən sənin xəyalınla başqa planetdəyəm,
Sən hardasan bilmirəm, mənə maraqlı deyil.

Hər ocaq qırağında verib özünü hisə,
Məndə hər addımbaşı vurulmaq adət deyil.
Gərək öz gözlərinlə görəsən bu nədisə,
Bu tək xoşbəxtlik deyil, bu tək səadət deyil.

Qəlbimi hər ağrıdan adınla fərəhlədim,
Səndən başqa dünyanın daha pir yeri yoxdur.
Dünən bir də oturub ömrümü vərəqlədim,
Sənin adın olmayan elə bir yeri yoxdur.

Dayanmışam, durmuşam tətiklərə hədəfdə,
Qarşımı kəsə bilməz nə bir bərə, nə bir bənd.
Ömür boyu işıq var mən olan hər tərəfdə,
Qorxulu görünməsin qoy sənə bu məhəbbət.

Bir gün xilas yelkəni olmağa varmı gücün,
Mən bu ayrılıqların göz yaşında batıram.
Acı iztirablara təslim olmamaq üçün,
Hər dəfə ümid adlı silaha əl atıram.

Arzularım dilimdə söz-söz ülgüclənsə də,
İçimdə şahə qalxır hələ də coşqun sular.
Saçlarımda illərin qəzəbi güclənsə də,
Atından enməyibdi qızılqanad duyğular.

Dağınıq bir ömürlə bir gün qarşına çıxsam,
Bir gün qarşılaşarsaq sorma nədi bu halət.
Qoltuğumda bir şüşə, əlimdə bir kirli cam,
Başımda sənnən dolu nazəndə bir səfalət.

## VARIYDI

Bir zamanlar ürəyimin içində,
İsitdiyim bir gözəl ad varıydı.
İkimiz də bir yuvanın quşuyduq,
Onda hikkə, məndə inad varıydı.

Dağ desəydi külüng alıb çapardım,
Ondan ötrü mərc gəlmişdim, apardım,
Gözlərində nə istəsəm tapardım,
Balığa su, quşa qanad varıydı.

Ara-sıra səndən yoxdu deyirdim,
Saçlarını şərf əvəzi geyirdim,
Acı-şirin hər sözünü yeyirdim
Dilində tam, sözündə dad varıydı.

Hər görəndə söz salırdı bibim də,
Arzularım lillənirdi dibimdə,
Bircə dəfə gül istədi, cibimdə -
Cəmi-cümü iki manat varıydı.

Barışmışdı əvvəliynən-sonuynan,
Uçub getdi kəpənəkli donuynan,
İndi tapıb deyəmmirəm onuynan,
Ayrı ömür, ayrı həyat varıydı.

Onnan getdi damağım da, dadım da,
Kəbini yox, uşağı yox adımda,
O sevgidən nə qalıb ki, yadımda,
Qabaq yenə yadımda yad varıydı.

## DÜŞÜB

Göz yaşım bu eşqin dəyirmanından,
Dən kimi üyünə-üyünə düşüb.
Qoşulub yiyəsiz küləklərinə,
Gedirəm payızın küyünə düşüb.

Qıymadın canıma ac pələng kimi,
Uçurtdun havanda çərpələng kimi,
Gəzərdi saçımda kəpənək kimi,
Əllərin nə yaman düyünə düşüb.

Bu qara günlərə kimdi qalayçı,
Nə qoysun o bəxtin ovcuna payçı,
Gəl doğra, ömrümü əlində qayçı,
Ürəyim ölçünə-ülgünə düşüb.

Qul desən qulundum əmrə müntəzir,
Can desən qoymuşdum yolunda nəzir,
Cismim azadlıqda yalandan gəzir,
Ruhum sən-Sibirdə sürgünə düşüb.

Quş belə səkəmmir o nə qəsrdi,
Hardan düzəldirəm ordan kəsirdi,
Mən səni sevdiyim iki əsrdi,
Amma etirafım bu günə düşüb.

* * *

Mən əldən-ayaqdan düşən bir qışam,
Sən gülü burnunda, mürgülü yazsan,
Əriyib-əriyib sənə hopmuşam.
Məni istəsən də unudammazsan.

Nə vaxt arzuladın, həsrəti qovdum,
Açmadım yolunu bircə yasın da.
Beş-altı dəyərli xatirə qoydum,
Könlünün əmanət kitabçasında.

Gəliblər-gediblər bir sürü dərdə,
Məni doğulandan qaralayıblar.
Sən təzə deyilsən, sənə qədər də,
Qəlbimi xanımlar yaralayıblar.

Hanı o sevginin ümid qatarı
Polad relslərini dişimlə didim.
Yadında qalıbsa de bilim, barı,
Mən səni sevəndə ayıqmı idim.

Sən bu ayrılığın rəsmini çəkdin,
Çalış ki, heç zaman düşməyim yada.
Onsuz da yaşaya bilməyəcəkdin,
Mən adlı bir ucuz yataqxanada.

Könlümdən-könlünə bir ip çəkərsən,
Sərib qurudarsan və.. o yaş eşqi.
Məndən yaxşısını tapsan əgər sən,
Verərsən geyinər bu nimdaş eşqi.

* * *

Çox üzür zəhirmar qayğılar məni,
Bu səni biryolluq unutmam deyil.
Yarımçıq yazmışdım sənə bu şeri,
Heç elə indi də tamam, tam deyil.

Şairlər sevgidən xəstələnməyi,
Hərəsi bir cürə təsvir eləyir.
Sənin məhəbbətin tütün kimidi,
Mənə ölümünə təsir eləyir.

Düşsə də lənətə gəlmiş istilər,
Olsa da arada ağır fasilə,
Başını qollarım üstünə qoymaq,
Şirin xəyallarda, gəlir hasilə.

İt iyi-tər iyi verən ömrümə,
Yovşan saçlarından ətir hazırla.
Gələndə doyunca ağlayacağam,
İndidən özünə çətir hazırla.

Dilin kaktus kimi olsa yaxşıdı,
Nəinki bal-qaymaq, nəinki püstə.
Sənin pəncərəndən gələn işığa,
Qalxır misralarım pəncəsi üstə.

Yazdığım hər hərfin damarlarında,
Mənim ürəyimin qanı var axı..
Sən mənə o qədər can demisən ki,
Əzrayıl gələndə çaşıb qalacaq,
Deyəcək - İlahi, hansını alım,
Bunun milyon-milyon canı var axı!!!

## GƏTİRDİ

Uçub bir gün yolum üstə saldığın,
Lələk məni ayağına gətirdi.
Mən gəlmirdim, eşq adında bir şirin,
Kələk məni ayağına gətirdi..

Demirəm ki, könlüm yetim deyildi,
Yaşayırdım, ölüm-itim deyildi,
Bu tək mənim cəsarətim deyildi,
Fələk məni ayağına gətirdi..

Can vermirdim, qol qoymurdum hər sözə,
Dayanmışdım min-min dərdnən göz-gözə,
Başım göynən gedən vaxtı bir gözəl,
Mələk məni ayağına gətirdi..

Lələ döndü barmağımı basdığım,
Pərqulandı daş yuxulu yastığım,
Buludların sinəsinə yazdığım,
Dilək məni ayağına gətirdi.

İllər məni sazaq kimi kəsirdi,
Mən bilmərəm sən bilərsən nə sirdi..
Bütün günü sizə tərəf əsirdi,
Külək məni ayağına gətirdi..

Səndən cavab gəlməyincə ta ki, mən...
Elə bilmə ürəyimə hakiməm,
Nə sözün var ürəyə de mən kiməm,
Ürək məni ayağına gətirdi..

